**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu**

**Məhkəmə Hakimiyyətinin Müstəqilliyinə dair Maks Plank Minerva Tədqiqat Qrupu**

# ŞƏRQİ AVROPA, CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYADA MƏHKƏMƏ HAKİMİYYƏTİNİN MÜSTƏQİLLİYİNƏ DAİR KİYEV TÖVSİYƏLƏRİ[*]

- Məhkəmə İdarəçiliyi, Hakimlərin Seçilməsi və Məsuliyyəti -

Kiyev şəhəri, 23-25 iyun 2010-cu il

Məhkəmə hakimiyyətinin müstəqilliyi ədalətli məhkəmə araşdırması hüququ, qanunun aliliyi və demokratiyanın mühüm elementidir. Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində bu prinsiplərə əsasən, məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsinə dəstək məqsədilə, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) Müqayisəli Dövlət Hüququ və Beynəlxalq Hüquq üzrə Maks Plank İnstitutu (MPİ) ilə birlikdə Kiyevdə Məhkəmə Hakimiyyətinin Müstəqilliyinə dair regional ekspert görüşü təşkil etmiş və ona ev sahibliyi etmişdir. Görüşdə təxminən 40 müstəqil ekspert iştirak etmişdir ki, onların arasında ATƏT-ə üzv olan 19 ölkədən, Avropa Şurası və onun Venesiya Komissiyasından tanınmış alim və təcrübəli mütəxəssislər də var idi.

Məhkəmə hakimiyyətinin müstəqilliyinə dair hüquqi sistemlər və təcrübələrin dərindən araşdırılmasından sonra DTİHB və MPİ məhkəmə hakimiyyətinin müstəqilliyinə xüsusi aidiyyəti olan üç mövzu seçdilər: (1) Məhkəmə idarəetməsi, xüsusilə də məhkəmə şuraları, məhkəmə özünüidarəetmə orqanları və məhkəmə sədrlərinin rolu ; (2) Hakimlərin seçilməsi - meyar və prosedurlar və (3) Hakimlərin hesabatlılığı və məhkəmə qərarlarının çıxarılması zamanı məhkəmə hakimiyyətinin müstəqilliyi. Toplantı çoxsaylı müfəssəl tövsiyələrin qəbul edilməsi ilə yekunlaşdı (“Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyada Məhkəmə Hakimiyyətinin Müstəqilliyinə dair Kiyev Tövsiyələri” əlavə edilib). Həmin tövsiyələrin məqsədi regionda seçilmiş üç mövzunun əhatə dairəsi üzrə məhkəmə hakimiyyətinin müstəqilliyini daha da gücləndirməkdir.

Üzv Ölkələr Kiyev Tövsiyələrində əksini tapmış ideyaları nəzərdən keçirmək, onların təcrübəsində tövsiyə edilən məsələlərə artıq uyğun olan sahələri müəyyənləşdirmək və müvafiq məlumatları DTİHB ilə bölüşməyə dəvət olunurlar. DTİHB buna müvafiq olaraq,

---

[*] Bu sənədin əsli *“Kyiv Recommendations on Judicial Independence in Eastern Europe, South Caucasus and Central Asia”* adı altında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən 2010-cu ili avqust ayında dərc edilmişdir. Bu qeyri-rəsmi Azərbaycan dilinə tərcümə ATƏT-in Bakı Ofisi tərəfindən hazırlanmışdır.

Kiyev Tövsiyələrində əksini tapmış tədbirləri həyata keçirməklə öz ədliyyə sistemlərinin müstəqilliyini daha da gücləndirməkdə maraqlı olduqlarını ifadə etmiş Üzv Dövlətlərin mənafeyi üçün təcrübə mübadiləsinə şərait yaradacaq və texniki dəstək təmin edəcək.

## 1-ci Hissə - Məhkəmə İdarəetməsi

1. Məhkəmə və hakimlərin idarə edilməsi müvafiq prosessual hüquqları və qanunun aliliyinə əsasən, qərarların müstəqil və qərəzsiz qəbul edilməsini gücləndirməlidir. Məhkəmə idarəetməsi heç bir halda məhkəmə qərarlarının məzmununa təsir etmək üçün istifadə edilməməlidir. Məhkəmə idarəetməsi ilə bağlı prosedurlar şəffaf olmalıdır.

### Məhkəmə Şuraları, Təkmilləşdirmə Komissiyaları və Özünüidarəetmə Orqanları

*Məhkəmə İdarəetməsi Sahəsində Səlahiyyət Bölgüsü*

2. Məhkəmə Şuraları məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək üçün xüsusi məhkəmə idarəetmə vəzifələri və müstəqil hüquqlar verilmiş orqanlardır. Bir məhkəmə orqanında həddən çox səlahiyyətin toplanmasına və korporativizm təfəkkürünə yol verilməməsi üçün hakimlərin seçilməsi (bax: bənd 3-4, 8), hakimlərin vəzifə yüksəlişi və təlimləndirilməsi, intizam (bax: bənd 5, 9, 14, 25-26), peşə dəyərləndirilməsi (bax: bənd 27-28) və büdcə (bax: bənd 6) kimi müxtəlif səlahiyyətlər arasında fərq qoymaq və onları ayırmaq tövsiyə olunur. Məsələn, məhkəmə idarəetməsinin xüsusi aspektləri üzrə məsul olan və eyni bir qurum və ya orqanın nəzarət altında olmayan müxtəlif müstəqil orqanların təsis edilməsi düzgün seçimdir. Bu orqanların hər birinin tərkibi onların məxsusi vəzifələrini əks etdirməlidir. Onların işi müvafiq icra hakimiyyəti orqanının aktları ilə deyil, qanunla tənzimlənməlidir.

*Hakimlərin Seçilməsi*

3. Bu vəzifənin həvalə edildiyi başqa müstəqil orqan olmazsa, hakim seçimi prosesində yazılı və şifahi imtahanların keçirilməsi üçün xüsusi ekspert komissiyası təsis edilməlidir (bax: həmçinin bənd 8). Bu halda Məhkəmə Şurasının səlahiyyəti lazımi prosedurlara riayət edilib-edilmədiyinin yoxlanılması və ya komissiya tərəfindən seçilmiş namizədlərin təyin edilməsi və yaxud onların təyinedici orqana tövsiyə edilməsi ilə məhdudlaşmalıdır (İşəgötürmə prosesi üçün bax: bənd 21-23).

4. Alternativ qaydada Məhkəmə Şuraları, İxtisas Komissiyaları və ya İxtisas Kollegiyası hakimlərin seçilməsi və təlimləndirilməsinə görə bilavasitə məsuliyyət daşıya bilər. Bu halda həmin orqanların icra hakimiyyətinin nəzarəti altında olmaması və yerli icra hakimiyyəti orqanlarından müstəqil fəaliyyət göstərməsi mühümdür (tərkib üçün bax həmçinin: bənd 8).

*İntizam Tədbirləri*

5. Korporativizm iddialarının qarşısını almaq və ədalətli intizam prosedurunu təmin etmək üçün Məhkəmə Şuraları aşağıda verilmiş sahələrin hər ikisində səlahiyyətə malik olmamalıdır: a) eyni vaxtda həm şikayətlərin qəbulu, həm də intizam məsələləri üzrə araşdırma aparılması, b) işə baxılması və intizam tədbirləri üzrə qərarın verilməsi. İntizam tədbirlərinə dair qərarlardan səlahiyyətli məhkəməyə şikayət vermək imkanı olmalıdır (bax həmçinin: bəndlər 9, 14, 25-26).

*Büdcə Məsləhəti*

6. Hökumətin məhkəmə büdcəsini təklif etmək və parlamentin büdcəni qəbul etmək üzrə mövcud səlahiyyətlərinə xələl gətirmədən, məlumatlı qərarın çıxarılmasına şərait yaratmaq üçün məhkəmənin maraqlarını ifadə edən orqanın, məsələn Məhkəmə Şurasının ədliyyə sisteminin büdcə ehtiyaclarını hökumətə təqdim etməsi məqsədəuyğun olar. Bu orqanın həm də büdcə məsələləri barədə qərar qəbul edilərkən parlamentdə çıxış etmək imkanı olmalıdır. Məhkəmə Şuraları məhkəmə sistemi daxilində büdcə vəsaitlərinin bölgüsündə də rol oynaya bilər.

*Məhkəmə Şuralarının Tərkibi*

7. Məhkəmə şurası təsis edildiyi halda, onun hakim üzvləri həmkarları tərəfindən seçilməli və birinci instansiya məhkəmələrindən olan hakimlər də daxil olmaqla, bütövlükdə məhkəmə hakimiyyətini təmsil etməlidirlər. Məhkəmə sədri Şuraya təyin edildiyi halda o, məhkəmənin sədri vəzifəsindən istefa verməlidir. Hakimlər tərəfindən seçilən məhkəmə hakimiyyəti üzvlərinin kifayət qədər çox olmasından başqa, Məhkəmə Şurasına daha çox şəxsin əhatə edilməsi və şəffaflıq prinsiplərinin inkişafın üçün hüquq professorları və vəkillər kollegiyasının üzvü də daxil edilməlidir. Prokurorlar hakimlər ilə eyni hüquqi korpusa aid olmadıqları halda istisna edilməlidirlər. Hüquq-mühafizə orqanlarının digər nümayəndələri də iştirakdan kənar edilməlidirlər. Nə Ölkə Prezidenti, nə də Ədliyyə Naziri Şuraya sədrlik etməlidir. Məhkəmə Şurasının sədri öz üzvləri arasından əksər səs çoxluğu ilə seçilməlidir. Məhkəmə Şurasının işində icra və qanunvericilik orqanlarının nümayəndələri üstünlük təşkil etməməlidirlər.

*Hakimlərin Seçilməsinə Cavabdeh Orqanların Tərkibi*

8. Hakimlərin seçilməsi üzrə xüsusi komissiyaların üzvləri (bax: bənd 3) Məhkəmə Şurası tərəfindən məhkəmə hakimiyyətinin üzvləri də daxil olmaqla, hüquqşünaslar arasından seçilməlidir. Məhkəmə Şuraları, İxtisas Komissiyaları və ya İxtisas Kollegiyası hakim seçiminə görə bilavasitə məsuliyyət daşıdıqları halda (bax: bənd 4), üzvlər müəyyən müddət üçün təyin edilməlidirlər. Bu seçkili orqanda məhkəmə hakimiyyəti üzvlərinin sayının kifayət qədər çox olması ilə yanaşı, müvafiq hüquq mədəniyyəti və təcrübəsi də nəzərə alınmaqla, digər peşə qruplarından üzvlərin qəbulu da arzuolunandır (hüquq professorları, vəkillər). Bu şuraların tərkibi siyasi məsələlərin hakim vəzifəsinə namizədin peşə keyfiyyətləri üzərində üstünlüyə malik olmamasını təmin etməlidir (bax: bənd 21).

*İntizam Komissiyalarının Tərkibi*

İntizamla bağlı işə baxmaq və intizam tədbirlərinə dair qərar vermək səlahiyyətinə malik orqanlar (bax: bənd 5, b) yalnız hakimlərdən təşkil edilməməli və onlara hakim peşəsindən kənar üzvlər də daxil olmalıdır. Səlahiyyət müddətində bu komissiyaların üzvləri idarəetmə, büdcənin tutulması və ya hakimlərin seçilməsi kimi, hakimlər və ya məhkəmə icması ilə bağlı digər funksiyaları yerinə yetirməməlidirlər. İntizam işlərinə dair qərar qəbul edən orqanlarına icra hakimiyyəti tərəfindən nəzarət edilməməli və onların işinə hər hansı siyasi təsir olmamalıdır. İcra hakimiyyətinin Məhkəmə Şuraları və ya intizam məsələləri həvalə edilmiş digər orqanlar üzərində hər hansı nəzarətinə yol verilməməlidir (Bax həmçinin: bənd 5, 25-26).

*Məhkəmə İdarəetməsinin Şəffaflığı*

Vəzifələrinin yerinə yetirilməsi üçün Məhkəmə Şurası mütəmadi olaraq iclaslar keçirməlidir. İctimaiyyətin Məhkəmə Şurasının iclaslarına buraxılması və şuranın qərarlarının dərc olunması qanunla təmin edilməli və təcrübədə tətbiq olunmalıdır.

Məhkəmə Sədrlərinin Rolu

11. Məhkəmə sədrlərinin rolu aşağıdakı qaydada ciddi məhdudlaşdırılmalıdır: onlar məhkəmə funksiyalarını yalnız məhkəmənin digər hakimlərinin yerinə yetirdiyi ölçüdə həyata keçirə bilərlər. Məhkəmə sədrləri başqa hakimlər tərəfindən məhkəmə işləri üzrə qərarların verilməsinə müdaxilə etməməli və hakimlərin seçilməsinə cəlb olunmamalıdır. Onların hakimlərin maaşları və mükafatlandırılmasının miqdarına dair söz demək səlahiyyəti də olmamalıdır (Bax: mükafat və imtiyazlara dair bənd 13). Məhkəmənin qeyri-hakim heyəti üzərində nəzarət də daxil olmaqla, onların təmsilçilik və inzibati funksiyaları ola bilər. İnzibati funksiyalar idarəetmə sahəsində təlimin keçilməsini tələb edir. Məhkəmə sədrləri hakimlərə təsir etmək məqsədilə məhkəmə vəsaitlərini bölüşdürməklə öz səlahiyyətlərindən sui-istifadə etməməlidirlər.

*Məhkəmə İşlərinin Bölgüsü*

12. Məhkəmə qərarlarının məzmununa təsir edəcək inzibati qərarların verilməsi məhkəmə sədrlərinin müstəsna səlahiyyətində olmamalıdır. Bunun bir misalı ya ixtiyari və yaxud da əvvəlcədən müəyyən edilmiş qaydada olması nəzərdə tutulan, məhkəmənin hakimlər şurası tərəfindən müəyyən edilmiş aydın və obyektiv meyarlara əsaslanan məhkəmə işlərinin bölgüsüdür. Qəbul edildiyi təqdirdə, bölgü mexanizminə müdaxilə edilməməlidir.

*Fərdi Mükafat və İmtiyazlar*

13. Uzunmüddətli əsasda mükafat və imtiyazlar ləğv edilməli və əmək haqları hakimlərin müvafiq yaşayış standartına uyğun ehtiyaclarını təmin edəcək və onların peşə məsuliyyətini müvafiq qaydada əks etdirəcək lazımi səviyyəyə qaldırılmalıdır. Mükafat və imtiyazlar mövcud olduqca, bunlar əvvəlcədən müəyyən edilmiş meyarlara və şəffaf prosedura əsasən verilməlidir. Məhkəmə sədrlərinin mükafat və ya imtiyazların verilməsi üzrə səlahiyyəti olmamalıdır.

*Hakimlərin İntizam Məsuliyyətinə Cəlb Edilməsində Məhdud Rol*

14. Məhkəmə sədrləri şikayətləri qəbul etməyə görə məsul orqana şikayət verə və intizam araşdırması apara bilərlər (bax: bənd 5 a). Şikayətə müstəqil və obyektiv baxılmasını təmin etmək üçün məhkəmə sədrlərinin intizam tədbiri başlatmaq və ya görmək səlahiyyəti olmamalıdır.

*Səlahiyyət Müddətinin Məhdud Olması*

15. Məhkəmə sədrləri səlahiyyət müddətlərinin yalnız bir dəfə uzadılması imkanı ilə məhdud müddətə təyin edilməlidirlər. İcra hakimiyyəti tərəfindən təyin olunduqda bu müddət yenidən təyin olunma imkanı olmadan qısa olmalıdır.

*Məhkəmə Sədrlərinin Şəffaf və Müstəqil Seçilməsi*

16. Məhkəmə sədlərinin seçimi şəffaf olmalıdır. Məhkəmə sədri vəzifəsinə vakansiyalar dərc edilməlidir. Müvafiq staj / təcrübəyə malik bütün hakimlər müraciət edə bilərlər. Seçim etmək səlahiyyətinə malik orqan namizədlərlə müsahibə apara bilər. Müəyyən bir

məhkəmənin hakimlərinin öz sədrlərini seçməsi yaxşı üsul ola bilər. Məsələn, sədr icra hakimiyyəti orqanı tərəfindən təyin edildikdə Məhkəmə Şurası və ya İxtisas Komissiyası (bax: bənd 4) timsalında hər hansı məsləhətçi orqan yerli hakimlərin də rəyi nəzərə alınmaqla tövsiyələr vermək hüququna malik olmalıdırlar, və icra hakimiyyəti orqanı yalnız əsaslandırılmış qərarı ilə həmin tövsiyələri rədd edə bilər. Bu halda məsləhətçi orqan başqa namizəd də tövsiyə edə bilər. Bundan əlavə, icra hakimiyyətinin həddən artıq təsirindən qorunmaq üçün məsləhətçi orqan səlahiyyətli səs çoxluğu ilə icra orqanının vetosunu qaldırmaq imkanına malik olmalıdır.

## 2-ci Hissə - Hakimlərin Seçilməsi və Təlimləndirilməsi

*Hakim Peşəsinə Çıxış Müxtəlifliyi*

17. Hakim peşəsinə çıxış tək xüsusi təlim keçmiş gənc hüquqşünaslara yox, həm də hüquqşünaslıq peşəsində böyük təcrübəyə malik hüquqşünaslara da verilməlidir (yəni, karyera ortası məhkəməyə qəbul). Hakimliyə namizədliyini irəli sürə bilmək üçün müvafiq peşə sahəsində qazanılmış təcrübənin səviyyəsi diqqətlə qiymətləndirilməlidir.

*Hüquq Təhsilinin Yaxşılaşdırılması*

18. Hakim peşəsinə çıxış ali hüquq təhsili olan namizədlərlə məhdudlaşmalıdır. Universitetin təhsil proqramında analitik bacarıqların öyrədilməsinə daha çox diqqət yetirilməlidir. Kazuslar üzərində iş, praktiki təcrübə, hüquq klinikaları və rəmzi məhkəmələr buraya daxil edilməlidir. Dövlət və özəl universitetlərdə və əlavə olaraq, distant təhsil proqramlarının təhsil səviyyəsinin eyni olması təmin edilməlidir. Universitetin təhsil proqramının kənardan dəyərləndirilməsi onların yaxşılaşdırılmasına müsbət töhfə ola bilər.

*Hakimlərin Xüsusi Hazırlığının Təkmilləşdirilməsi.*

19. Hakimlər üçün təhsil müəssisələrinin seçim prosedurlarının tərkib hissəsini təşkil etdiyi halda, belə müəssisələr icra hakimiyyətindən müstəqil olmalıdır. Təlim proqramları hakimlik fəaliyyətində nəyə ehtiyacın olduğuna diqqət yetirməli və universitet təhsilini tamamlamalıdır. Buraya davranış aspektləri, ünsiyyət bacarıqları, mübahisələri tənzimləmə bacarığı, idarəetmə bacarıqları və hüquqi sənədlərin tərtib edilməsi bacarıqları daxil edilməlidir. Məhkəmə Şurası mövcud olduqda o, hakimlərin hüquqi təhsili üzrə tövsiyələr qəbul edə bilər. Buraya müvafiq bacarıqların təsnifatı və hakimlərin davamlı təhsilinə dair məsləhətlər daxildir.

20. 19-cu bənddə qeyd edilmiş xüsusi təlimlər həm də hakimlər sırasına qoşulmuş digər hüquqşünaslıq peşəsi sahibləri üçün də təmin edilməlidir.

*İşəgötürmə Prosesi*

21. Seçim prosesində şəffaflığın təmin edilməsi üçün hakimlərin seçilməsi üzrə prosedur və meyarlar qanunla aydın şəkildə müəyyən edilməlidir. Vakansiya elanı və habelə şərtlər və şərait ictimaiyyət üçün açıqlanmalı və geniş yayılmalıdır. Müraciət etmiş bütün şəxslərin siyahısı (və ya ən azı qısa siyahısı) ictimaiyyət üçün açıq olmalıdır. Seçici orqan müstəqil, nümayəndəli və ictimaiyyət qarşısında məsuliyyətli olmalıdır (Bax: bənd 3-4). Həm müsahibənin mövzusu və həm də onun həcminin seçim prosesində əvvəlcədən müəyyən edilməsi şərti ilə, o, ən azı yekun mərhələyə çatmış namizədlərlə müsahibə aparmalıdır.

22. Əgər namizədin keçmişi yoxlanılarsa, bu yoxlamalar son dərəcə ehtiyatlı və yalnız hüququn aliliyi prinsipi əsasında aparılmalıdır. Seçici orqan polisdən cinayət keçmişinin və namizədliyin rədd edilməsi üçün hər hansı əsaslar üzrə standart yoxlamanın aparılmasını tələb edə bilər. Belə yoxlamaların nəticələri namizədə təqdim edilməli və o, məhkəmə qaydasında həmin nəticələri mübahisələndirmək hüququna malik olmalıdır. Sadalananlardan başqa hər hansı təhlükəsizlik xidməti tərəfindən heç bir digər keçmiş yoxlamaları həyata keçirilməməlidir. Keçmiş yoxlamaları əsasında namizədin rədd edilməsinə dair qərar əsaslandırılmalıdır.

23. Hakimlərin yekun təyinatının Dövlət Prezidentinin səlahiyyətinə aid olduğu hallarda, onun səlahiyyət dairəsi seçim orqanı tərəfindən tövsiyə edilmiş namizədlərə münasibətdə məhdudlaşmalıdır (Məs, Məhkəmə Şurası, İxtisas Komissiyası və ya Ekspert Komissiyası; bax: bənd 3-4). Belə namizədin təyin edilməsindən imtina yalnız prosedura istinad etməli və əsaslandırılmalıdır. Bu halda seçici orqan öz qərarını təkrar nəzərdən keçirməlidir. Bunun bir üsulu seçici orqana səlahiyyətli səs çoxluğu ilə prezidentin vetosunu aradan qaldırmaq hüququnun verilməsi olar. Bütün qərarlar qanunla müəyyən edilmiş qısa vaxt çərçivəsində qəbul edilməlidir.

*Məhkəmə Hakimiyyətində Azlıqların Təmsil Edilməsi*

24. Ümumiyyətlə, məhkəmə hakimiyyətinin bütövlükdə əhalinin tərkibini əks etdirməsi məqsədəuyğundur. Məhkəmə sistemində azlıqların təmsil edilməsini artırmaq üçün az təmsil olunan qruplar hakim olmaq üçün lazımi keyfiyyətlərə malik olmağa ruhlandırılmalıdır. Hər hansı azlıq qrupuna aid olduqlarına görə heç kim istisna edilməməlidir.

## 3-cü Hissə - Hakimlərin Hesabatlılığı və Məhkəmə Qərarında Məhkəmə Hakimiyyətinin Müstəqilliyi

*İntizam İcraatları*

25. Hakimlərə qarşı intizam icraatları bütövlükdə məhkəmə hakimiyyətinin nüfuzuna xələl gətirən kobud və bağışlanılmaz peşə davranışı halları ilə bağlı olmalıdır. Hakimlərin intizam məsuliyyəti məhkəmələr arasında hüquqi şərhdə fərqlər də daxil olmaqla, onların hökm və qərarlarına və ya məhkəmənin tənqid edilməsinə şamil edilməməlidir.

*İntizam Məsələlərinə dair Qərar Qəbuledici Müstəqil Orqan*

26. İntizam məsələləri ilə bağlı hallara dair qərar vermək üçün (bax: bənd 9) xüsusi müstəqil orqan olmalıdır (məhkəmə, komissiya və ya şura). İntizam məsələlərinə baxan orqan intizam icraatı başlatmaq səlahiyyətlərinə malik olmamalı, həmçinin belə səlahiyyətləri olan üzvlərə malik olmamalıdır. Bu orqanlar ittiham edilən hakimi prosessual təminatlar və əlavə olaraq, müdafiə təşkil etmək və səlahiyyətli məhkəməyə şikayət vermək hüququ ilə təmin etməlidir. Hakimlərin intizam məsuliyyəti ilə bağlı icraatlar, bir qayda olaraq, şəffaf olmalıdır. İttiham edilən hakim prosesin qapalı keçirilməsini xahiş etməzsə, belə dinləmələr açıq olmalıdır. Bu halda, məhkəmə həmin xahişin əsaslı olub-olmadığına dair qərar verməlidir. İntizam məsələlərinə dair qərarlar əsaslandırılmalıdır. İntizam məsələlərinə dair yekun qərarlar dərc olunmalıdır.

*Hakimlərin Peşə Qiymətləndirilməsi*

27. Hakimlərin peşə qiymətləndirilməsi aparıldıqda bundan qərarların müstəqil olaraq çıxarılmasına zərər yetirəcək tərzdə istifadə olunmamalıdır. Hakimlərinin işinin

qiymətləndirilməsi əsasən keyfiyyət göstəricilərinə əsaslanmalı və peşə keyfiyyətləri (hüquqi bilik, məhkəmə prosesini aparmaq bacarığı, əsaslandırılmış qərarlar yazmaq bacarığı), şəxsi keyfiyyətlər (iş yükünün öhdəsindən gəlmək, qərar vermək, yeni texnologiyalara açıqlıq bacarığı), sosial keyfiyyətlər (vasitəçilik etmək, tərəflərə hörmət bacarığı) də daxil olmaqla onların bacarıqlarına diqqət yetirməli və inzibati idarəetmə vəzifəsinə mümkün yüksəliş üçün rəhbərlik etmək bacarığına nəzər salmalıdır. Həmin bacarıqlar məhkəmə təlim proqramları, habelə işdə mənimsənilməlidir.

28. Hakimlər heç bir halda verdikləri qərarların məzmununa görə qiymətləndirilməməlidir (birbaşa və ya qərarların ləğv edilməsi hallarının sayına əsasən). Hakimin işə nə cür baxması heç zaman sanksiya üçün əsas olmamalıdır. Hakimlik fəaliyyətinin səmərəliliyinə dair statistik məlumatlar əsasən inzibati məqsədlər üçün saxlanılmalı və yalnız hakimlərin qiymətləndirilməsində amillərdən biri kimi nəzərdən keçirilməlidir. Hakimlərin qiymətləndirilməsindən hakimlərə təkmilləşdirmək istədikləri iş aspektlərini müəyyən etməyə kömək və mümkün vəzifə yüksəlişi üçün istifadə edilə bilər. Hakimlərin işdən çıxarılması və ya digər sanksiyalara gətirib çıxaracaq müntəzəm imtahanlar (attestasiyalar) ömürlük təyin olunmuş hakimlər üçün məqsədəuyğun deyil.

29. Peşə qiymətləndirilməsi üzrə meyarlar aydın şəkildə bildirilməli, şəffaf və vahid olmalıdır. Əsas meyarlar qanunda göstərilməlidir. Müntəzəm qiymətləndirmələrdə istifadə edilən dəqiq meyarlar peşə qiymətləndirmələrinin vaxtı və mexanizmləri ilə birlikdə qaydalarda əksini tapmalıdır.

*Müstəqil Qiymətləndirmələr*

30. Məhkəmə Şurası meyar və prosedurların müəyyən edilməsində rol oynasa da peşə qiymətləndirmələri yerli səviyyədə aparılmalıdır. Qiymətləndirmələr əsasən başqa hakimlər tərəfindən aparılmalıdır. Məhkəmə sədrləri hakimləri qiymətləndirmək üçün müstəsna səlahiyyətə malik olmamalı və onların rolu eyni və digər məhkəmələrdən olan hakimlər qrupu tərəfindən tamamlanmalıdır. Həmin qrup həmçinin vaxtaşırı olaraq, hakimin işə diqqətlə yanaşması, tərəflərə hörməti və prosedur qaydalarına münasibətini öyrənmək üçün onunla müntəzəm təmasda olan şəxslərin (məsələn, vəkillər) və hüquq professorlarının fikirlərini də nəzərə almalıdır.

31. Qiymətləndirməyə hakimin yazılı qərarlarının nəzərdən keçirilməsi və onun məhkəmə proseslərini nə cür aparmasını müşahidə edilməsi daxil olmalıdır. Qiymətləndirmələr şəffaf olmalıdır. Hakimlər dinlənilməli və şikayət etmək imkanı verilməklə qiymətləndirmənin nəticəsi onlara bildirilməlidir.

*Şəffaflıq Əsaslı Peşə Məsuliyyəti*

32. Məhkəmə proseslərində şəffaflıq norma olmalıdır. Məhkəmə zalında hakimlərin davranışına dair sübut və habelə dəqiq proses qeydlərini təmin etmək üçün dinləmələr tam izlənilməsini təmin edən elektron vasitələrlə qeyd edilməlidir. Yazılı protokol və stenoqram hesabatları kifayət hesab edilmir. Hakimlərin peşə və ictimai məsuliyyətini artırmaq üçün qərarlar məlumat bazasında və veb səhifələrində elə dərc edilməlidir ki, onları pulsuz olaraq əldə etmək imkanı olsun. həqiqətən müyəssər və pulsuz edən tərzdə dərc edilməlidir. Qərarlar mövzu, qaldırılmış hüquq məsələləri və onları tərtib etmiş hakimlərin adlarına uyğun indekslənməlidir. İntizam məsuliyyətinə dair qərarlar verən orqanların qərarları da dərc edilməlidir (bax həmçinin: bənd 26).

33. Məhkəmələrə ictimai güvəni artırmaq üçün səlahiyyətli orqanlar jurnalistlərin məhkəmələrə çıxışına şərait yaratmalı və mətbuat katibi və ya mətbuatla iş üzrə mütəxəssis vəzifələri təsis etməlidirlər. Məhkəmə proseslərində iştirak edən jurnalistlər qarşısında heç bir baryer və ya maneə olmamalıdır.

*Cinayətlərə İşləri üzrə Məhkəmə Qərarlarının Müstəqilliyi*

34. Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyanın əksər ölkələrində ədliyyə sistemlərinin ittiham etməyə meylli olması ilə bağlı tədbir görmək lazımdır.. Bəraətlər hələ də qara ləkə və ya uğursuzluq hesab edilir. Bəraətlərdən yan keçmək üçün hakimlər üzərində təzyiqi azaltmaq üçün onların peşə qiymətləndirilməsi sistemində dəyişiklik (və müvafiq halda prokuror və təhqiqatçıların qiymətləndirilməsində dəyişikliyin nəzərə alınması) ciddi surətdə tövsiyə olunur. Bəraətlərin sayı hakimlərin qiymətləndirilməsi üçün heç zaman göstərici olmamalıdır. Hakimlərə həbs qətimkan tədbirinin seçilməsi üçün müraciətlərə baxılmasında faktiki səlahiyyətlərə malik olmalıdırlar. Bəraətlərdən edilən şikayətlərə məhkəmə qaydasında baxılması baxışı ən istisna hallarla məhdudlaşdırılmalıdır.

*Daxili Müstəqillik*

35. Yuxarı instansiya məhkəmələri tərəfindən direktiv, izahat və ya qərarların verilməsinə yol verilməməlidir, lakin onlar mövcud olduğu halda, aşağı instansiya məhkəmələrinin hakimləri üçün məcburi xarakterli olmamalıdır. Əks halda onlar hakimlərin fərdi müstəqilliyinin pozulmasına yol açır. Bundan əlavə, yuxarı instansiya məhkəmələrinin presedent qərarları və həmin məhkəmələr tərəfindən xüsusi olaraq, presedentlər kimi müəyyən edilmiş qərarlar tövsiyə xarakterli olmalı və başqa işlərdə aşağı instansiya məhkəməsinin hakimləri üçün məcburi olmamalıdır. Bunlar aşağı instansiya məhkəməsi hakimlərinin qərar çıxarma azadlığının və onlara görə məsuliyyətin məhdudlaşdırılması üçün istifadə edilməməlidir. Qanunun vahid şəkildə şərh edilməsi heç bir məcburedici gücə malik olmayan məhkəmə praktikasının öyrənilməsi vasitəsilə stimullaşdırılmalıdır.